**Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq məsələləri üzrə birgə Hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2007-ci il 15 mart tarixində Düşənbə şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında ticarət-iqtisadi əməkdaşlıq haqqında Saziş"in 8-ci maddəsinə müvafiq olaraq, Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq məsələləri üzrə birgə Hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi aşağıdakı heyətdə təsdiq edilsin:[1]

***Komissiyanın həmsədri***[2]

*Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri*

***Komissiyanın üzvləri***

*Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavini*
*Azərbaycan Respublikası İqtisadiyyat nazirinin müavini*
*Azərbaycan Respublikası Fövqəladə Hallar nazirinin müavini*
*Azərbaycan Respublikası Energetika nazirinin müavini*
*Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin müavini*
*Azərbaycan Respublikası Mədəniyyət nazirinin müavini*
*Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri*
*Azərbaycan Respublikasının Tacikistan Respublikasında fövqəladə və səlahiyyətli səfiri.*

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq məsələləri üzrə birgə Hökumətlərarası komissiyanın Azərbaycan tərəfinin tərkibi barədə Tacikistan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 fevral 2008-ci il
2667

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 16 yanvar 2009-cu il tarixli 117 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı **("Azərbaycan" qəzeti 17 yanvar 2009-cu il, 12 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 17)**
2. 30 sentyabr 2009-cu il tarixli **506** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı **("Azərbaycan" qəzeti 1 oktyabr 2009-cu il, 217, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 9, maddə 734)**
3. 10 fevral 2014-cü il tarixli **105** nömrəli Azərbaycan Respublikasının Fərmanı (**"Respublika" qəzeti, 12 fevral 2014-cü il, 30 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 112**)
4. 27 iyun 2014-cü il tarixli **194** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 29 iyun 2014-cü il, 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 644)**
5. 21 noyabr 2014-cü il tarixli **374** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 11, maddə 1414)**
6. 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384 )**
7. 07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **("Respublika" qəzeti, 09 sentyabr 2016-cı il, 198, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518)**
8. 1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677)**
9. 2 mart 2020-ci il tarixli **1875** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **("Xalq" qəzeti, 3 mart 2020-ci il, 48 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 3, maddə 260)**

**SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 16 yanvar 2009-cu il tarixli 117 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı **("Azərbaycan" qəzeti 17 yanvar 2009-cu il, 12, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 17)** ilə 1-ci bəndində "**Heydər Babayev - Azərbaycan Respublikası iqtisadi inkişaf naziri**" sözləri "**Yaqub Eyyubov - Azərbaycan Respublikası Baş nazirinin birinci müavini** " sözləri ilə, "**Nazim İbrahimov - Azərbaycan Respublikasının Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin sədri**" sözləri "**Nazim İbrahimov - Azərbaycan**

**Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri**" sözləri ilə əvəz edilmişdir və "**Xələf Xələfov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini**" sözlərindən sonra "**Niyazi Səfərov - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini** " sözləri əlavə edilmişdir.

30 sentyabr 2009-cu il tarixli **506** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı (**"Azərbaycan" qəzeti 1 oktyabr 2009-cu il, 217, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 9, maddə 734**) ilə "**Yaqub Eyyubov - Azərbaycan Respublikası Baş nazirinin birinci müavini**" sözləri "**Şahin Mustafayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri** " sözləri ilə əvəz edilmişdir.

30 sentyabr 2009-cu il tarixli **506** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı (**"Azərbaycan" qəzeti 1 oktyabr 2009-cu il, 217, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 9, maddə 734**) ilə "**Niyazi Səfərov - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini**" sözləri çıxarılmışdır.

10 fevral 2014-cü il tarixli **105** nömrəli Azərbaycan Respublikasının Fərmanı (**"Respublika" qəzeti, 12 fevral 2014-cü il, 30 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 112**) ilə 1-ci hissəsində "**sənaye və energetika nazirinin müavini** " sözləri "**energetika nazirinin müavini** " sözləri ilə əvəz edilmişdir.

27 iyun 2014-cü il tarixli **194** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 29 iyun 2014-cü il, 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 644**) ilə 1-ci hissəsində "**iqtisadi inkişaf**" sözləri "**iqtisadiyyat və sənaye** " sözləri ilə əvəz edilmişdir.

21 noyabr 2014-cü il tarixli **374** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 11, maddə 1414**) ilə 1-ci hissədə "**rabitə və informasiya texnologiyaları nazirinin müavini** " sözləri "**rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini**" sözləri ilə əvəz edilmişdir.

16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** ) ilə 1-ci hissədən "**və sənaye** " sözləri çıxarılmışdır.

07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti, 09 sentyabr 2016-cı il, 198 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518**) ilə 1-ci hissəsinin "**Aslan Aslanov** " sözləri "**İlham Quliyev** " sözləri ilə, "**rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini** " sözləri "**rabitə və yüksək texnologiyalar nazirinin müavini** " sözləri ilə və "**Məhərrəm Əliyev**" sözləri "**Abbasəli Həsənov**" sözləri ilə əvəz edilmişdir.

07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti, 09 sentyabr 2016-cı il, 198 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518**) ilə 1-ci hissəsindən "**Nazim İbrahimov – Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri**" sözləri çıxarılmışdır.

1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677**) ilə 1-ci hissəsində "**Musa Pənahov - Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini** " sözləri çıxarılmışdır.

1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677**) ilə 1-ci hissəsində "**İltimas Məmmədov - Azərbaycan Respublikası rabitə və yüksək texnologiyalar nazirinin müavini** " sözləri "**Elmir Vəlizadə - Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini** " sözləri ilə əvəz edilmişdir.

[2] 2 mart 2020-ci il tarixli **1875** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 3 mart 2020-ci il, 48, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 3, maddə 260**) ilə 1-ci hissə ilə təsdiq edilmiş Komissiyanın tərkibi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~**Komissiyanın həmsədri**~~

| | |
|---|---|
| ~~Şahin **Mustafayev**~~ | ~~- Azərbaycan Respublikasının iqtisadiyyat naziri~~ |

~~**Komissiyanın üzvləri:**~~

| | |
|---|---|
| ~~Rafael **Mirzəyev**~~ | ~~- Azərbaycan Respublikası fövqəladə hallar nazirinin birinci müavini~~ |
| ~~Xələf **Xələfov**~~ | ~~- Azərbaycan Respublikası xarici işlər nazirinin müavini~~ |
| ~~Gülməmməd **Cavadov**~~ | ~~- Azərbaycan Respublikası energetika nazirinin müavini~~ |
| ~~*İlham **Quliyev***~~ | ~~- Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini~~ |
| ~~Ədalət **Vəliyev**~~ | ~~- Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini~~ |
| ~~*Elmir **Vəlizadə***~~ | ~~*- Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini*~~ |
| ~~Kamal **İsmayılzadə**~~ | ~~- Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının MDB ölkələri ilə iqtisadi əlaqələr şöbəsinin müdiri~~ |
| ~~*Abbasəli **Həsənov***~~ | ~~- Azərbaycan Respublikasının Tacikistan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri~~ |